# BAYRAKTAR



*Müəllif:*
Məhəbbət Əsədova

*İllüstrator:*
Ruhulla Həsənzadə

3 alma



Məhəbbət Əsədova

# BAYRAKTAR

İllüstrator:
Ruhulla Həsənzadə



Oğlum Əliyə...

3 alma

fond

Fond

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 118301

84(5Aze)+68.52(5Tyq)
Ə 91



"Görəsən, mən böyüyəndə kim olacağam?" Bu sual məni həmişə düşündürür: oynayanda, kitab oxuyanda, hətta yatanda da. Bir işdə uğurlu olanda həvəslənir, nəsə alınmayanda isə ruhdan düşürəm. Polis, həkim, mühəndis, rəssam? Axı bu qədər peşə arasında hansı birini seçəcəyəm?!

Həmin sualı anama da tez-tez verirəm. O isə həmişə yaxşı oxumağımı, öyrənməyimi və ən əsası - özümə inanmağımı tövsiyə edir. Yəqin, hər ana övladına bu cür sözlər deyir... Ancaq bu yaxınlarda tanış olduğum və araşdırdığım maraqlı bir həyat hekayəsi məni bu sözlərin doğruluğuna ürəkdən inandırdı. Beləliklə, suallarımın çoxuna cavab tapdım...

Hər şey yenə bir sualla başladı...

10 dekabr 2020-ci il... Bakının “Azadlıq” meydanında təntənəli Zəfər paradı keçirilirdi.

Həmin gün hava şaxtalı olsa da, mən də, meydana yığışan minlərlə insan da o soyuğu hiss etmirdik, axı biz qəhrəmanlarımızı - qalib Azərbaycan ordusunu qarşılayırdıq! Olduqca soyuq, şaxtalı havanı sanki meydana toplaşan izdihamın nəfəsi, sevinc və qürur hissi ilə çırpınan ürəklərin hərarəti isitmişdi.






44 günlük Vətən müharibəsi zamanı böyükdən kiçiyə bütün ölkə əhalisi dəmir yumruq kimi birləşib cəbhədən gələn son xəbərləri həyəcanla gözləyirdi. Bu gün qələbə sevincini yaşamaq hər kəsin haqqı idi; mən və ailəm, bütün Azərbaycan xalqı illərdir ki, bu günü arzulayırdıq.





Bayraqlarımızı əllərimizə alıb lap ön cərgədə dayanmış və Zəfər paradının başlanmasını səbirsizliklə gözləyirdik. Uşaqlığı Qarabağın incisi olan Şuşada keçən sevimli nənəmin həsrətini çəkdiyi, hər dəfə duyğulanaraq gözəlliyindən və ətrindən bəhs etdiyi, indi isə qələbəmizin simvoluna çevrilən xarıbülbülü görmək həvəsi məni daha da həyəcanlandırırdı.

Nəhayət, tribunada Azərbaycan Respublikasının Dövlət Himni səsləndi, hamımız əlimiz ürəyimizin üstündə, fəxrlə himnimizi oxuduq və Zəfər paradı başlandı...

Ali Baş Komandanımız İlham Əliyevin və bütün müharibə boyunca ordumuzun haqq savaşına dəstək olan qardaş Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyip Ərdoğanın çıxışından sonra şanlı ordumuzun hərbçiləri, hərbi texnikamız, qəhrəman qazilərimiz və düşməndən ələ keçirilən qənimətlər önümüzdən keçdi.




Nümayiş olunan hərbi texnikalar arasında böyüklüyünə görə başqalarından o qədər də fərqlənməyən balaca bir təyyarə də vardı. Əslində bu, təyyarə də deyildi, o qədər balaca idi ki, onun içinə pilot da yerləşməzdi: bu, pilotsuz uçuş aparatı idi.

Həmin uçuş aparatının adı çəkiləndə insanlar onu uzun-uzadı alqışladılar.



Hamının "Baxın, "Bayraktar" budur!"- deyə onu göstərməyi mənim marağımı lap artırdı. Xəbərlərdə "Bayraktar"ın adını çox eşitmişdim, ancaq bu balaca cihazı insanların nə üçün belə sevdiyini, alqışladığını başa düşmürdüm.




Paradı axıra qədər fəxr və sevinclə, ordumuzla, qələbəmizlə qürur duyaraq izlədim. Fikrimsə həmin uçuş aparatının yanında qalmışdı. Evə çatanda ilk işim onun haqqında hər şeyi ətraflı öyrənmək oldu: “Görəsən, bu cihaz əsgərlərimizə necə kömək edib? Ordumuzun şanlı qələbəsində onun rolu nədən ibarət olub? Onu kim, nə məqsədlə və necə icad edib?”

Öyrəndiklərim mənə o qədər faydalı oldu ki, mütləq öz yaşıdlarımla bölüşmək qərarına gəldim...

Gəlin, qəhrəmanımın maraqlı həyat hekayəsini onun öz dilindən dinləyək.



Mənim adım Selçuk Bayraktardır. 1979-cu il oktyabrın 7-də İstanbulda sadə bir mühəndis ailəsində dünyaya gəlmişəm. Əslən trabzonlu olsaq da, ailəm İstanbulun Sarıyer bölgəsində yaşayırdı. Biz - üç qardaş orta məktəbə gedirdik. Oxumağa, hər şeyi dərindən öyrənməyə olan həvəsim məni məktəbdə yaşıdlarımdan fərqləndirirdi. Bu həvəs Türkiyənin ən uğurlu 100 şagirdindən biri kimi məni məşhur "Robert kolleci"ndən məzun olmağa gətirib çıxardı.




Mənim ilk ilham qaynağım atam olub. O, çox təmkinli, işini, vətənini sevən, çalışqan bir insan idi. Bütün gününü kiçik cihaz hissələrinin istehsal olunduğu emalatxanasında keçirən atam sonradan "Baykar Makina" adlı bir şirkət yaratdı.

Mən də, qardaşlarım da dərslərimizi bitirən kimi atamızın yanına – emalatxanaya qaçır, ona kömək edir, orada gördüyümüz hər şeylə maraqlanırdıq. Buradakı kiçik detallara baxdıqca xəyallar qurur, onları xəyalən birləşdirib qəribə cihazlar yaradırdım.



"Bir bilsən, bu kiçik mexaniki hissəciklər necə böyük maşınları idarə edə bilir?!"- deyən atam bizim həvəs və marağımızı görüb, səbirlə bütün iş prosesini izah edir, görkəmli ixtiraçılar və tanınmış alimlər haqqında maraqlı hekayələr danışırdı.

Dinlədiklərimizin içində ən çox məni heyrətləndirən XII əsrdə yaşamış müsəlman ixtiraçı və mühəndis Əl-Cəzari haqqındakı hekayə idi. Sən demə, Əl-Cəzari həm də dövrünün tanınmış astronomu olmuşdu və dünyada ilk robotu o yaratmışdı...



8 yaşım olanda atam pilotluq kurslarına yazılmışdı. Təyyarələrə olan marağımı görüb bir gün məni də özü ilə uçuşa apardı. Biz təyyarə ilə səməya qalxdıq, göy üzündə quşlar kimi azad idik...

Nəhəng buludların arasında təyyarə ilə etdiyimiz akrobatik hərəkətlər mənə inanılmaz hisslər bəxş etdi. Bu ilk uçuşun verdiyi həyəcanı ömrüm boyu unutmayacağam; elə həmin an hiss etdim ki, mənim bütün gələcəyim səmayla, göylərlə bağlı olacaq.






Sən demə, bir dəfə ayağın yerdən üzüldüsə, bir daha yerdə əvvəlki kimi gəzə bilmirsən. Həmin gündən göylərə vurğun olan mən - bu 8 yaşlı balaca oğlan min illər boyu insanın ən böyük arzusunun: səmada uçmağın, şahinlər kimi göylərdə pərvaz etməyin həsrəti ilə yaşayırdım...

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 118301

Beləcə, illər keçdi, mən də, arzularım da böyüdük, lakin avadanlıqlara, robotlara və təyyarələrə olan marağım qətiyyən azalmadı. Artıq bu maraq mənim həyat yolumu və seçəcəyim peşəni müəyyən etmişdi.

İstanbul Texniki Universitetinin Elektronika və kommunikasiya mühəndisliyi fakültəsindən məzun olduqdan sonra təhsilimi ABŞ-ın Pensilvaniya Universitetində davam etdirdim. Sonra Masaçusets Texnologiya Universitetində magistr və doktorluq dərəcələri aldım.





Yeganə türk tələbə kimi dünyanın hər yerindən gəlmiş tələbələr arasında fərqlənmək o qədər də asan deyildi. İlk işim hər zaman marağımı cəlb edən cihazlar – pilotsuz uçuş aparatları (PUA) oldu.

Gecə-gündüz yorulmadan, müəllimlərin tapşırıqlarını yerinə yetirir, araşdırmalar aparır, yeniliklərlə maraqlanırdım. Bəzən müəllimlərin: “Bu, mümkün deyil”, - dediyi ideyalarımı həyata keçirməyin yollarını inadla axtarırdım.

Amerikada, dünyanın ən yaxşı universitetlərində uğur qazansam da, vətənim üçün çox darıxırdım. Ən böyük arzum öz doğma ölkəm üçün nəsə edə bilmək idi. Qazandığım biliklərin və təcrübənin məhz Türkiyəyə faydalı olacağını düşünüb ölkəmə qayıtmağa qərar verdim. Onu da bilirdim ki, məqsədimə çatmaq asan olmayacaq, böyük çətinliklərlə üzləşə bilərəm.

Əvvəllər belə uçuş aparatlarını dünyanın ən nəhəng aviasiya şirkətləri istehsal edirdi, bəlkə də, buna görə çoxları mənim layihəmin uğurlu olacağına inanmırdı. Amma beynimdə olan psixoloji maneələri, qorxu, tərəddüd kimi hissləri bir qırağa qoyub, milli ruh və əzmlə yoluma başladım...





Beləcə, anamın xeyir-duaları ilə beş nəfərlik Bayraktar ailəsi – mən, atam, anam, iki qardaşım böyük inamla, əzmlə məşəqqətli bir yola çıxdıq. Kiçik bir emalatxana dünya ilə rəqabətə başladı!

Əsas məqsədimiz ölkəmizə illərcə zərər verən terrorla mübarizədə vətənimin qalib gəlməsi və bu yolda daha az itki verməsi üçün çalışmaq idi. Bunun üçün düşündüyüm yol isə mürəkkəb şəraitdə əsgərlərin işinə yarayan, həm də başdan-ayağa özünəməxsus yerli istehsal olan pilotsuz uçuş cihazlarını yaratmaq idi.



Uzunmüddətli çalışmalardan sonra - 2004-cü ildə Bayraktar ailəsi əllə havaya atılaraq müşahidə funksiyasını yerinə yetirən pilotsuz təyyarə maketi icad etdi. Bu aparata soyadımızı - "öndə gedən, bayrağı daşıyan" mənasını ifadə edən "Bayraktar" adını verdik.

İstehsal elədiyimiz pilotsuz uçuş aparatı dünyanın məşhur sərgisində iştirak hüququ qazandı. Bu sahədə ad qazanmış ABŞ, Almaniya, Koreya və Fransa kimi ölkələrin şirkətləri arasında qalib olmaq heç də asan deyildi. Lakin qalib olmağı qarşımıza məqsəd qoymuşduq. Türkiyə istehsalı olan "Bayraktar" həm gecə, həm də gündüz uğurlu uçuş həyata keçirə bilməyi və digər üstün xüsusiyyətləri ilə sərginin birincisi oldu.

Bu uğurdan sonra vətənə döndük. Ankarada bizi çox vacib bir görüş gözləyirdi...

Türkiyənin dövlət rəsmiləri və yüksək rütbəli hərbçilərinin qatıldığı tədbirdə "Bayraktar"ın test uçuşu həyata keçirildi. Çox həyəcanlı idim, axı illərlə bu günü gözləmişdim. Bu layihə dəstəkləndiyi halda, 5 il ərzində Türkiyəni insansız hava aparatı (İHA) istehsalı sahəsində birinci yerə çıxaracağımıza çox inanırdım!



Uğurlu uçuşdan və inamlı təqdimatdan sonra dövlətimiz layihəmizə dəstək oldu. Və biz start verdik! Gənc ixtiraçı kimi xəyallarımı bir-bir reallaşdırmağa başladım.






Beləliklə, 10-20 saat havada qalan, tamamilə səssiz, dəqiq müşahidə qabiliyyəti olan, yüksək hündürlükdən düşməni aşkarlayan kameralara malik və ən əsası, kəşfiyyat vəzifəsini yerinə yetirdikdən sonra özü geri qayıdan pilotsuz uçuş aparatını yaratmışdım.

Mənim cihazım düşmənlə mübarizə aparan əsgərin gözü olacaq, onun yolunu açacaqdı. Hiss olunmadan, səs çıxarmadan uzun müddət havada qala bilən uçuş cihazları həm kəşfiyyat, həm də döyüş vasitəsi kimi ordunun köməyinə çatacaq, iti gözlərə malik şahin kimi ovunu görəcək və məhv edəcəkdi.



İnamla çıxdığımız bu yolda cəmi 5 nəfərdən ibarət olan Bayraktar ailəsi artıq 1500 nəfərdən ibarət böyük heyətə çevrilmişdir.

Qürurla deyə bilərəm ki, "Bayraktar" öz vəzifəsini layiqincə yerinə yetirir və səmalarımızın azadlığını qoruyur.

Atam həmişə deyərdi ki, tək bir insanın uğuru cəmiyyəti heç bir yerə aparmaz. Cəmiyyət dəstəkləməsə, ölkədə heç bir texnoloji inkişaf daimi ola bilməz!



Bu düşüncədən yola çıxaraq, 2018-ci ildə Türkiyədə növbəti uğurlu layihəyə imza atdım. Pilotsuz uçuş aparatlarına maraq göstərən minlərlə gəncin qoşulduğu, bilik və bacarığını sərgilədiyi "Teknofest" (Aviasiya, Kosmos və Texnologiya festivalı) keçirməyə qərar verdim.

"Türkiyənin ayaqları yerə dəyməyən ilk festivalı" şüarı altında keçirilən "Texnofest"in iştirakçılarının sayı 500 min nəfər olmuşdu. İkinci il bu festivala qatılanların sayı (1 milyon 720 min insan) dünya rekordunu keçdi. Bax onda doğru yolda olduğumu anladım...



Festivala müxtəlif ölkələrdən, fərqli yaş və dil sahibləri – hər kəs qatılmaq istəyirdi. Minlərcə tələbəyə, şagirdə, adi vətəndaşlara festivala ödənişsiz qatılıb, icad etdikləri texnikanı nümayiş etdirmək, sərgilənən təyyarələrə, robotlara yaxından baxıb toxunmaq imkanı yaratdıq. İnanıram ki, "Teknofest"ə gələn və ondan faydalanan gənclər illər sonra öz sahələrində uğur qazandıqları zaman Türkiyə bunun bəhrəsini görəcək və biz niyyətimizə çatmış olacağıq!



Festivala qatılan gənclərə tövsiyəm: “Önəmli olan istehsal etmək yox, yeni fikirlər yaratmaq, ölkəmizin gələcəyi haqda düşünməkdir. Mübarizə ruhunuzu itirməyin, heç nədən qorxmayın, özünüzə inanın!”- olurdu. Çünki mən də özümə inandım və bacardım!

Sən də inan, sən də mütləq bacaracaqsan!

Arzularım, xəyallarım isə bitib-tükənmir. Uşaqlıqdan qəlbimdə yurd salmış daha bir xəyalım da vardı: uçmaq, pilot olmaq... 8 yaşımda qurduğum bu xəyalı düz 38 yaşımda gerçəkləşdirdim. Pilotluq kurslarına yazıldım və kursu müvəffəqiyyətlə tamamladım. Eynilə atam məni götürdüyü kimi, bir gün mən də uçuşa öz ailəmi apardım... Xəyallarının həyata keçməsini görmək necə də qürurvericidir!

Hədəflərimə yavaş-yavaş çatıram, amma bu hələ son deyil!





Azərbaycanın 44 günlük Vətən müharibəsində düşmən texnikalarının məhv edilməsində və ordumuzun müharibəni daha az itki ilə başa vurmasında "göylərin hakimi" adlandırılan "Bayraktar"ın da böyük rolu olub.

Selçuk yalnız texnikası ilə deyil, bütün Türkiyə ilə birlikdə Azərbaycana mənəvi dəstəyini də əsirgəməyib. Onun qələbəmizə olan bu böyük dəstəyini dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev Selçuk Bayraktarı “Qarabağ” ordeni ilə təltif edib.





Selçuk Bayraktar @Selcuk · 10.11.20
Zaferi nasip eden de,
Mutlak zafer sahibi de Allah'tır.

Şehidlerimizin Ruhları şad olsun.
Rabbim Türk'ün şanını yüceltsin.

Eşq olsun Azərbaycan Ordusuna!
Qarabağ Azərbaycandır!

#Azerbaycan

2.386 15,6K 99,2K

Selçuk Bayraktar @Selcuk · 08.11.20
Şükürler olsun 28 yıllık hasreti, anavatanına kavuşturan Rabbimize...

#Şuşa



## Yenə də suallar?

Görəsən, bu hekayə mənə niyə belə ilham verdi? Bəlkə, mən də Selçuk kimi elə 8 yaşımda böyük xəyallar qurmağa başlamışam? Bəlkə, ikimiz də oxumağı çox sevirik? Bəlkə, mən də onun kimi mühəndis olacağam?

Suallar çoxdur. Ancaq onu bilirəm ki, bu hekayənin qəhrəmanı kimi uğur qazanmaq üçün yorulmadan çalışmaq və məqsədinə çatmaq lazımdır...

Selçuk Bayraktar müsahibələrinin birində Bakıda da "Teknofest" təşkil eləmək planının olduğunu söyləyib.

Mən də mütləq həmin festivala qatılacağam! Bəlkə, həmin tədbir mənim üçün də bir fürsət olacaq?!

Bu hekayədən sonra anladım ki, möcüzələri, imkansız sayılanları gerçəkləşdirmək həmişə öz əlimizdədir, yetər ki, ürəkdən istəyəsən, çalışasan və özünə inanasan! Qəhrəmanımın hələ mənim yaşda ikən oxumağa, daim yenilikləri öyrənməyə olan böyük həvəsi, əzmi, çalışqanlığı gələcəkdə ailəsinin soyadını daşıyan qeyri-adi bir ixtiraya gətirib çıxardı və onu bütün dünyaya tanıtdı.

Bu hekayənin sonu yoxdur, çünki əminəm ki, qəhrəmanımın adını dünya hələ çox eşidəcək! İlk milli helikopter, "Bayraktar", tənəffüs aparatı, "Bayraktar"dan daha böyük tutuma malik "Akıncı" təyyarəsindən sonra sıra məşhur ixtiraçının adını daşıyan "Əl Cəzari"də – uçan avtomobildədir... Dünya hələ çox heyrətlənəcək!

Bəlkə də, biz bu kitabı oxuyarkən o, möhtəşəm yeniliklərə imza atır...








Müharibə bitdi!
Mən, müstəqil ölkənin gənc vətəndaşı kimi, bütöv, böyük və azad Azərbaycanımla fəxr edirəm! Bu torpaqlar hələ çox mərd, mübariz, savadlı, vətənsevər yeni nəsillər yetişdirəcək!

# Müəllif haqqında

Mən - Əsədova Məhəbbət Eldar qızı 7 avqust 1991-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşam. 2012-ci ildə Bakı Slavyan Universitetini fərqlənmə diplomu ilə bitirmişəm. Ailəliyəm. Əli adında oğlum, Cahan adında qızım var. Bu kitabı oğlum Əliyə həsr eləmişəm.

Kiçik yaşlarımdan valideynlərimdən aldığım milli ruhu, vətən sevgisini övladlarıma da aşılamağa çalışıram. Çünki yaxşı bilirəm ki, uşaqların tərbiyəsində və formalaşmasında anaların rolu böyükdür. Övladına sevgidən və qayğıdan əlavə, onlara savad vermək, vətənpərvər ruhda yetişdirmək. düzgün istiqamətləndirmək də çox önəmlidir.

"Bayraktar" – mənim ilk kitabımdır. Bu kitabı sevərək, hər cümləsini yaşayaraq yazmışam. Baş qəhrəman kimi qələmə aldığım Selçuk Bayraktarın hekayəsi, düşünürəm ki, olduqca ibrətamiz, nümunəvi bir həyat yoludur. İstərdim ki, gələcək nəslin nümayəndələri onun kimi əzmlə, yorulmadan və ruhdan düşmədən arzularına çatmağı və böyük uğurlara imza atmağı bacarsınlar. Onun həyatı və uğurları balaca uşaqlara nümunə olsun.

Selçuk Bayraktar bacardı! Sən də mütləq bacaracaqsan!

Ümid edirəm ki, kitab xoşunuza gəldi.

Kitabın ərsəyə gəlməsində məni daim ruhlandıran, fikir və həyəcanlarımı bölüşən, maddi-mənəvi dəstəyini əsirgəməyən həyat yoldaşım Elxan Əsədova minnətdarlığımı bildirirəm.



Redaktor və korrektor: Əminə İbrahimli
Dizayner: Sevinc Bayramova

Azərbaycan dilində birinci nəşri
10 9 8 7 6 5 4 3 2 1

**Məhəbbət Əsədova. Bayraktar. Bakı, TEAS Press Nəşriyyat evi, 2021.**

**ISBN 978-9952-540-65-9**

Məhəbbət Əsədovanın Selçuk Bayraktarın həyat hekayəsini oğlu Əlinin timsalında bütün uşaqlara nümunəvi həyat yolu kimi göstərərək yazdığı kitab ilk dəfə olaraq TEAS Press Nəşriyyat evində çapa hazırlanıb.

TEAS Press Nəşriyyat evi "3 alma" əmtəə nişanı ilə azyaşlı uşaqlar, yeniyetmə və gənclər, eləcə də müəllim və valideynlər üçün bədii və elmi-kütləvi kitablar nəşr edir.

www.teaspress.az
www.3alma.az

Bütün hüquqlar qorunur
© TEAS Press Nəşriyyat evi, 2021
© Məhəbbət Əsədova, 2021

Türkiyədə çap edilib

"3 alma" TEAS Press Nəşriyyat evinə məxsus əmtəə nişanıdır

“Önəmli olan istehsal etmək yox,
yeni fikirlər yaratmaq,
ölkəmizin gələcəyi haqda düşünməkdir.
Mübarizə ruhunuzu itirməyin,
heç nədən qorxmayın, özünüzə inanın!

Çünki mən də özümə inandım və
bacardım!

Sən də inan, sən də mütləq
bacaracaqsan!”

*Selçuk Bayraktar*

bayraktar.book

www.3alma.az

ISBN 978-9952-540-65-9

3 alma

9 789952 540659

Qiymәti: 11₼